Azərbaycan.- 2021.- 15 aprel. S. 5.

# Azərbaycan və Çexiya parlament dostluq qruplarının onlayn görüşü keçirilib

Aprelin 14-də Azərbaycan və Çexiya qanunvericilik orqanlarında mövcud olan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının onlayn formatda görüşü keçirilib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan parlamentinin Çexiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Elnur Allahverdiyev çexiyalı deputatlara keçən ilin noyabrında Azərbaycanın zəfəri ilə başa çatan Vətən müharibəsi və bugünkü vəziyyət barədə məlumat verib. O, Ermənistanın 30 il işğalda saxladığı Azərbaycan ərazilərində törətdiyi dağıntılardan və minalanmış sahələrdən danışıb. Bildirib ki, Azərbaycan erməni işğalından azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinə başlayıb. Məlumat verilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin göstərişlərinə əsasən, həmin ərazilərdə "yaşıl zona" konsepsiyasının həyata keçirilməsi, bərpa işlərində ən müasir texnologiyaların tətbiqi, "ağıllı" kənd və şəhərlərin salınması, köçkünlərin tezliklə öz doğma yurdlarına qaytarılması nəzərdə tutulub.

Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Fatma Yıldırım çıxışında Ermənistanın minalanmış sahələrin xəritələrini verməkdən imtina etməsini qarşı tərəfin təcavüz siyasətindən əl çəkməməsi kimi qiymətləndirib.

Çexiya-Azərbaycan parlament dostluq qrupunun rəhbəri Zdenek Ondraçek və qrupun digər üzvləri Çexiyada hazırda mövcud olan vəziyyət və payızda keçirilməsi gözlənilən parlament seçkiləri barədə danışıblar. Qarşı tərəf erməni işğalının Azərbaycana vurduğu dağıntılar və insan itkiləri ilə bağlı fikirlərini ifadə ediblər. Çexiyalı deputatlar Azərbaycanla əməkdaşlığın Çexiya üçün böyük önəm daşıdığını, bölgədə münasibətlərin normallaşmasına yönəlmiş addımları təqdir etdiklərini bildiriblər. Çexiyalı millət vəkilləri işğaldan azad edilmiş ərazilərdə həyatın yenidən canlandırılmasında və inkişafında Azərbaycana uğurlar arzulayıb, bu işdə dəstəklərini ifadə ediblər.

Görüşdə deputatlardan Ülviyyə Ağayeva, Jalə Əhmədova, Naqif Həmzəyev, Soltan Məmmədov, Elşən Musayev də iştirak ediblər.